# Günahını etiraf etmək istəməyən Rusiya

## Bu ölkə məsuliyyətdən yayınmaq üçün şantaj yolunu tutub

**Ötən il dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus "Embraer-190" tipli sərnişin təyyarəsinin Rusiya hava məkanında, Qroznının üstündə vurulması, hətta hansı tip silahla atəşə tutulması ilk gündən aydın idi.**



Bu günlərdə açıqlanan ilkin hesabat da bir daha təsdiq etdi ki, hava gəmisi Rusiya səmasında atəşə məruz qalıb. Lakin Moskva qəza baş verən andan sərgilədiyi təəccüb və təəssüf doğuran davranışlarını ilkin hesabat açıqlanandan, yəni baş verənlər sübutlarla ortaya qoyulandan sonra da davam etdirir. Rusiya günahını boynuna alaraq üzr istəmək əvəzinə ölkəmizə qarşı şantaja keçməyi daha üstün tutur.

### Rusiyanın arqumenti yoxdur

Ümumiyyətlə, Rusiya tərəfi bu günə qədər qəza ilə bağlı hər hansı tutarlı arqument ortaya qoya bilməyib, əvəzində yayındırıcı manevrlər etməyə çalışıb. Məsələn, gah rəsmi səviyyədə günahın pilotlarımızda olduğu deyilib, gah da təyyarəmizin quş sürüsü ilə toqquşması, oksigen balonunun partlaması kimi yalanlar ortaya atılıb və bunlar rus mediası tərəfindən tirajlanıb.

Azərbaycana qarşı hücum xarakterli kampaniyaya baxmayaraq, qəza ilə əlaqədar açıqlanan ilkin hesabat da ortaya qoydu ki, təyyarəmiz məhz Rusiya hava məkanında atəşə məruz qalıb. Hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması təyyarənin vurulduğunu aydın şəkildə təsdiq edir.

O da bildirilir ki, 05:13:32-də hava gəmisinin əsas idarəetmə sistemləri itirilir, 05:21:42-də əlaqələndirici dispetçer "kavyor əməliyyatı" barədə Qroznıya məlumat verir.

Bütün bunlar təsdiqləyir ki, Azərbaycana məxsus təyyarə Qroznı üzərində atəşə məruz qalıb, ardıcıl bir neçə atəş açılıb, hava gəmisinin əsas idarəetmə sistemləri 05:13:32-də sıradan çıxıb, əlaqələndirici dispetçer isə "kavyor əməliyyatı" barədə Qroznıya 8 dəqiqə sonra - 05:21:42-də məlumat verib. Yəni təyyarə ekipajının bu əməliyyat barədə əvvəlcədən xəbər tutması mümkün deyil.

Yenicə verilən ilkin açıqlamaya qədər də qəza ilə bağlı təfərrüatlar ən xırda detallarına kimi bəlli idi.

Moskvaya sadəcə o qalırdı ki, çıxıb günahını etiraf etsin, üzr istəsin və beynəlxalq qanunlara uyğun şəkildə kompensasiya ödəsin, günahkarları cəzalandırsın.

Amma qəzanın ilkin hesabatı açıqlanandan, eləcə də ölkəmizdə qeyri-qanuni fəaliyyət göstərən Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus Evi"nin fəaliyyətinə xitam verilməsindən sonra Rusiya tərəfi Azərbaycana qarşı şantaja keçib.

### Şovinizm baş qaldırır...

Hər hansı keçmiş sovet respublikasına qarşı siyasət yürüdərkən Rusiya tərəfi ənənəvi olaraq onun diasporuna təzyiqlərin olacağı ilə təhdid edir. Azərbaycana qarşı da ənənəvi strategiya tətbiq olunmağa başlandı. Bu ölkənin hakim "Yedinaya Rossiya" partiyasının Dövlət Dumasında təmsil olunan nümayəndələri azərbaycanlılara qarşı "tədbirlərin" görülməsini təklif ediblər.

Belə ki, deputat Nikolay Valuyev Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının qapadılması, biznesin məhdudlaşdırılması, bu ölkə ərazisində qeyri-qanuni yaşayan azərbaycanlıların çıxarılması, qanuni yaşayanların isə hərbi uçota götürülməsi, cəbhəyə göndərilməsi və sair bu kimi iddialarla çıxış edib. "Velikorus şovinizmi"nin parlaq nümayəndəsi azərbaycanlılar da daxil olmaqla Mərkəzi Asiya və Qafqazdan olan gəlmələri öz xəstə və irqçi təxəyyülünün məhsulu olan və rus dilində jarqon istifadə olunan "şobla-vobla" adlandırıb.

100-ə yaxın xalqın dövləti kimi özünü təqdim edən Rusiya Federasiyasında deputat digər millətlərin nümayəndələrinin ünvanına jarqon sözlərlə təhqirlər yağdırırsa, bu, həmin ölkədə yaşayan və ya ora hər hansı bir məsələdən ötrü səfər etmək istəyən digərlərinə də ciddi siqnaldır.

Həmin partiyanın Dumada digər nümayəndəsi Yevgeni Popov təklif edib ki, əgər "Rossotrudniçestvo"nun fəaliyyəti dayandırılarsa, Azərbaycanın Rusiyada iki şirkətinin də fəaliyyətinə baxmaq lazımdır.

Kremlin göstərişi ilə Azərbaycana qarşı yüksək tribunalardan səsləndirilən bu şantajlar heç bir işə yaramır. Çünki istənilən sahədə Azərbaycanın Rusiyanın qarşısına qoyacağı daha ciddi arqumentləri var. Təkcə İkinci Qarabağ müharibəsində baş verənləri qısa yada salaq. Həmin zaman da Rusiya 1990-cı illərdəki addımlarını təkrarladı. Erməni tərəfi Rusiya tərəfindən silahlandırıldı, Azərbaycana qarşı istifadə edilmək üçün onlara "İsgəndər", "Pansır", "Pole 3M" və digər sistemlər verildi.

Silahdan əlavə, Rusiya Ermənistana informasiya sahəsində də lazımi yardımı göstərdi. Bu ölkənin əsas telekanallarının efirindən solovyovlar, skobeyevalar və digərləri Azərbaycana qarşı saysız-hesabsız tənqid, təhqir, hədələr yağdırdılar.

Eyni zamanda bu ölkənin təbliğatçıları iqtisadi faktorları qabardaraq Azərbaycanı şantaj etməyə çalışırlar. Lakin iqtisadi göstəricilərin rəqəmlərlə əksi də göstərir ki, bütün hallarda ziyan görən tərəf Rusiya olacaq.

Azərbaycan heç kimdən asılı deyil, hamı ilə əməkdaşlığa hazırdır və indiyə qədər də heç zaman nə Rusiya rəhbərliyinə, nə də xalqına qarşı hansısa təhqiramiz davranış sərgiləməyib. Hazırda Rusiya tərəfindən üzləşdiyi bu cür davranışları da qətiyyən qəbul etmir. Azərbaycanlıları təhdid etmək, ölkəmizi şantaj etmək Rusiyaya heç nə qazandırmayacaq. Əksinə, Moskva rəsmi Bakının timsalında etibarlı strateji tərəfdaşını itirmək kimi arzulamadığı durumla üz-üzə qala bilər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 11 fevral (№ 30).- S.6.